# GDPR VƏ İNTERNET RESURSLARINDAN İSTİFADƏ KONTEKSTİNDƏ UŞAQ HÜQUQLARI

*Siyavuş Bağırov*

*Müəllif Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə bakalavr ikinci kurs tələbəsidir.*

Texnologiyaların sürətli inkişafı ilə əvvəlki dövrlərdən fərqlənən XXI əsrdə insan hüquqlarının müdafiəsi əsas müzakirə predmetlərindən biridir. Xüsusi həssaslığı ilə seçilən uşaqların hüquqlarının qorunması yönündə təminat mexanizmlərin təhlili bir sıra problemlərin həllinə yönəlsə də, qanunlara edilmiş dəyişikliklər və ya müəyyən sahə üzrə hüquq mənbələrinin azlığı yeni maneələr formalaşdıra bilməkdədir. Bu məqalədə Ümumi Məlumat Mühafizəsinin Tənzimlənməsi (General Data Protection Regulation, bundan sonra GDPR[1]) adlı sənəd təhlil edilməklə onun müsbət və ziddiyyətli tərəfləri açıqlanır, həmçinin başda Birləşmiş Millətlər Təşkilatı Uşaq Hüquqları Konvensiyası (bundan sonra UHK) olmaqla digər hüquq mənbələri ilə qarşılıqlı müqayisəsi aparılır. Məqalədə texnoloji inkişafın uşaqların həyatı və hüquqlarına təsirləri də ətraflı izah edilir.

Açar sözlər: Uşaq hüquqları, Ümumi Məlumat Mühafizə Tənzimlənməsi, Beynəlxalq hüquq, Uşaq Hüquqları Konvensiyası, Avropa hüququ, Texnologiya hüququ.

## GİRİŞ.

Cəmiyyət və dövlətin inkişaf tarixinə nəzər yetirdikdə insan hüquqlarına müxtəlif dövrlərdə müxtəlif münasibətin mövcud olması qənaətinə gələ bilərik. Belə fərqlənmənin əsas qaynağının başda dövlət idarəçilik forması, əxlaq və hüquq düşüncəsi olmaqla bir çox amillərin təsiri olması şübhəsizdir. Qeyd edilənlər sırasında hüquq düşüncəsini xüsusilə vurğulamaq lazımdır, çünki ‘o, hüquqa sadəcə olaraq münasibət olmayıb, ... hüquqa tənqidi münasibətlə yanaşaraq onu qiymətləndirir’.[2] Mövzu üzrə hüquqa və qanunvericiliyə tənqidi münasibətlə yanaşaraq, fikrimizcə, ziddiyyətlərin aradan qaldırılması mümkündür.

İnsan hüquqları müəyyən sistem kimi düşündükdə, uşaq hüquqları onun sistemaltı elementi kimi mühüm əhəmiyyət kəsb edir. Uzun müddət ərzində formalaşmış konsensusu da nəzərə alaraq onların xüsusi diqqət və qayğıya ehtiyac duyduqları qeyd edilməlidir. Uşaq hüquqları insan hüquqları daxilində spesifikliyi ilə seçilir. Bunu bir-biri ilə sıx əlaqədə olan üç əlamət ilə səciyyələndirmək olar:

- Uşaq hüquqlarının spesifikliyinin birinci əlaməti tarixi amillərlə bağlıdır. Hesab edirəm ki, qədim zamanlardan 1924-cü ilədək müddəti əhatə edən birinci dövr sırf uşaq hüquqlarını tənzimləyən mənbənin olmaması ilə seçilir. Uşaqlara ibtidai icma quruluşunda daha diqqətcil və həssas münasibət mövcud olsa da, patriarxallığın təsiri və ardınca ilkin dövlətlərin formalaşması nəzərdən qaçmır. Burada müxtəlif məişətlərdə fərqli yanaşmaların fərqinə vara bilərik, məsələn bir-birinə qonşu sayılan Afina və Spartada uşaqlara verilən təhsil və psixoloji təsir fərqli idi. ‘Spartadan fərqli olaraq Afina daha liberal və demokratik ictimai quruluşa sahib olduğuna görə təhsil sistemi baxımından fərqli bir quruluşa malik idi’.[3] Təhsildəki fərqlər növbəti zamanlarda

[1] Ətraflı məlumat üçün: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:32016R0679

[2] M.F.Məlikova. “Hüquq nəzəriyyəsi”, Bakı, “Elm və təhsil nəşriyyatı”, 2019, 448 s. Səh. 303.

[3] D.Ç.Dikyol. “Antik Yunanda bir eğitim modeli: Sparta”. Mediterranean Journal of Humanities, VI/2 (2016), səh 194. Ətraflı məlumat üçün: http://proje.akdeniz.edu.tr/mcri/mjh/6-2/MJH-12-9-Derya_CIGIR_DIKYOL.pdf (son baxış 16 fevral 2022-ci il).

hüquq düşüncəsində ziddiyyətlərə gətirib çıxara bilər. 1924-cü ildə Uşaq Hüquqları haqqında Cenevrə Bəyannaməsi qəbul edildi. 1959-cu ildə bəyannamənin daha təkmil və əhatəli versiyası hazırlanmış, 1989-cu ildə BMT Uşaq Hüquqları Konvensiyası (UHK) üçün bazis olmuşdur. UHK-nın qəbul edilməsi, zənnimizcə, inqilabi olmuş və onun əsasında ölkələrdə uşaq hüquqları haqqında qanunlar[4] qəbul edilmişdir. Sırf uşaq hüquqları ilə bağlı olmasa da, 1966-cı il Beynəlxalq Paktlarında onların hüquqlarının mühafizəsi ilə əlaqədar normalara yer verilmişdir.

- Spesifikliyin ikinci əlaməti bioloji amillərdir. Aydındır ki, bir qayda olaraq, uşaqların bioloji inkişafda olmasına görə fiziki zəifliyi bəzi işləri görə bilməmələrinə səbəb olur. Həmçinin, əfsuslar olsun ki, xüsusilə, zəif inkişaf etmiş ölkələrdə və (ya) müxtəlif rayonlarda uşaq əməyinin istismarı hallarına rast gəlinir. UHK-nın mövqeyinə baxsaq, görə bilərik ki, 'uşaqların iqtisadi istismardan və onların sağlamlığı üçün təhlükə törədən...yaxud onun sağlamlığına və fiziki...inkişafına ziyan vura biləcək hər hansı işin yerinə yetirilməsindən müdafiə hüquqları var' (maddə 32). Uşaqların məcburi əməyinin qadağan edilməsi haqqında 182 nömrəli Konvensiya 1989-cu ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmişdir.
- Sonuncu və üçüncü əlamət sosio-psixoloji təsirlərdir ki, ilk ikisi ilə vəhdət təşkil edir. 32-ci maddədə həmçinin onların sosial, mənəvi və əxlaqi inkişafına zərbə vurma ehtimalı olan işlərdən müdafiə hüququ göstərilmiş, 6-cı maddədə onların inkişafa olan hüquqlarını təmin etmək konvensiya iştirakçısı olan dövlətlər üçün öhdəlik kimi qəbul edilmişdir.

Əlamətlərin təhlili uşaqların xüsusi həssas kateqoriya olmasının sübutudur və istər dövlətlər, istərsə də təşkilatlar qanunvericilik fəaliyyətində rəhbər tutmalıdır. Texnoloji inkişaf mühitində uşaq hüquqlarının mühafizəsi özlüyündə yeni çətinlik və öhdəlikləri gətirir. UHK-nın 16-cı maddəsinin göstərişini (toxunulmazlıq hüququ) diqqətə alaraq, məsələnin tənzimlənməsi üçün bir sıra tədbirlərin təşkili imperativ hal almışdır. Vurğulanmalıdır ki, dövlətlərlə yanaşı beynəlxalq təşkilat qismində BMT, Avropa Şurası və Avropa İttifaqı uşaqların dijital erada hüquqlarının qorunması üçün qətiyyətli addımlar atmışdır. Sırf uşaq hüquqları ilə bağlı olmasa da, 1995-ci ildə qəbul edilmiş "Şəxsi Məlumatların Emalı və Bu Məlumatların Sərbəst Hərəkəti haqqında" Avropa Parlamentinin və Şurasının Direktivi[5] (bundan sonra Direktiv) region səviyyəsində rezonans doğurdu. Ehtiyacları qarşılamadığına və reallıqla uzlaşa bilmədiyinə görə illər sonra GDPR Direktivi əvəz etdi. Sələfi ilə müqayisədə tənzimlədiyi ictimai münasibətlər dairəsi daha geniş olsa da, GDPR-in mübahisə ediləsi yönləri heç də az deyil.

Yaşla bağlı normanın UHK-dəkindən fərqlənməsi, internet resurslarından istifadə zamanı onlara daxil olmaq üçün razılıqda üzləşilə biləcək problemlər, mənəviyyatı təhdid edə biləcək tərkiblərlə mübarizə GDPR-i müzakirə predmetinə çevirir. GDPR adıçəkilən problemlərin həllində effektiv mənbə rolunu oynayır mı? Yoxsa düzəliş edilməli və reallığa uyğunlaşdırılmalı məqamlar çoxdur?

## GDPR-İN ZİDDİYYƏTLİ YÖNLƏRİ.

a. Yaş məsələsi və ondan irəli gələn valideyn səlahiyyətləri

[5] Nümunə olaraq, 1998-ci ildə Azərbaycan Respublikasında uşaq hüquqları haqqında qanun (№ 499-IQ) qəbul edilmişdir. Qanunun preambulasında UHK-yə və digər beynəlxalq sənədlərə istinad var. Ətraflı məlumat üçün: http://www.e-qanun.az/framework/3292 (son baxış 16 fevral 2022-ci il).
[6] Ətraflı məlumat üçün: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A31995L0046 (son baxış 17 fevral 2022-ci il)

İstər Avropa İttifaqı hüdudlarında, istər Avropanın digər ölkələrində, istərsə də müxtəlif regionlarda internet resurslarının davamlı inkişafı ilə uzlaşa biləcək və fərdi məlumatların qorunmasına təminat verən qanunvericilik mənbələrinin azlığı GDPR qəbul edildikdə diqqətləri ona yönəltdi. Valideynlərin əksəriyyətinin və kommersiya qurumlarının əks qütblərdə dayandığı mövzu yaş problemi idi. Direktivdə yaşla bağlı tənzimləmə yox idi. Bu baxımından GDPR-in rolunu qənaətbəxş saymaq olar. Lakin məlumatların emalı üçün razılıqla bağlı müəyyən edilmiş yaş həddinə münasibət eyni olmadı. GDPR-in 8-ci maddəsində təsbit edilmişdir ki, 'uşağın ən azı 16 yaşı olduqda onun şəxsi məlumatlarının emalı 6.1-ci maddənin "a" bəndi[6] əsasında uşağa bilavasitə informasiya cəmiyyəti xidmətlərinin təklifi yönəldikdə qanuni hesab edilir. Uşağın yaşı 16-dan az olduqda, bu cür emal yalnız uşaq üzərində valideynlik məsuliyyətinin sahibi tərəfindən razılıq verildiyi və ya icazə verdiyi dərəcədə qanuni olacaqdır. Üzv dövlətlər bu məqsədlər üçün qanunla daha aşağı yaş müəyyən edə bilər, bir şərtlə ki, bu yaş 13 yaşdan aşağı olmamalıdır'.

Yaşla bağlı bu cür tənzimləmənin tənqidçiləri hesab edirlər ki, 16 yaş etalonu heç bir konkret analizə əsaslanmır. 'Başqa sözlə, 13-16 yaş həddinin arxasında dayanan məntiqin nə olduğunu bilmədiyimiz üçün onun təsirini və təyin olunmuş məqsədə uyğunluğunu təhlil edə bilmirik'.[7] Belə olduqda uşaqlarla bağlı dəyişikliyin legitimliyə və sosial reallığı əks etdirməsi sual altına düşür. Hesab edirəm ki, bu hal təfsir və tətbiqdə çətinliklər yarada bilər. Unutmaq olmaz ki, bir sıra dövlətlərin bir ittifaqda cəmlənməsində məqsəd millətlər arasında harmoniya yaratmaq və onlararası ziddiyyətləri mümkün olduqca həll etməkdir. Mövzuya istinadən, Avropa İttifaqı müqaviləsinin 3 (3)-cü maddəsində uşaq hüquqlarının mühafizəsinə təşviq təşkilatın məqsədlərindən biri kimi təsbit edilmişdir.

Üzv dövlətlər müxtəlif yaş hədləri müəyyən etdikləri təqdirdə mövcud harmoniya təmin edilə bilərmi? Məsələn, təsəvvür edək ki, 3 qonşu və üzv dövlət Almaniya, Polşa və Çexiya müvafiq olaraq yaş həddini 13, 15 və 16 olaraq müəyyən etdilər. Subyekt 13 yaşı tamam olmuş Çex vətəndaşıdır və o, hazırda Polşa ərazisindədir, üstəlik hansısa Almaniyaya məxsus informasiya cəmiyyəti xidmətləri məlumat emalı ilə bağlı təklif irəli sürür. Belə halda həll üsulu GDPR-də göstərilməmişdir. Nəticə etibarilə, bütün üzvlər üçün standart və vahid yaşın müəyyən edilməməsi **birinci ziddiyyətdir.**

UHK-nın 1-ci maddəsinə əsasən, 'hər bir insan 18 yaşa çatanadək bu Konvensiyanın məqsədlərinə görə uşaq sayılır'. Konvensiyanın 16-cı maddəsi isə toxunulmazlıq hüququna birbaşa diqqət ayırır: 'Hər hansı bir uşaq onun şəxsi həyatı, ailə həyatı...yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşına və ya qeyri-qanuni surətdə müdaxilə obyekti, yaxud onun şərəf və ləyaqətinə qeyri-qanuni qəsd obyekti ola bilməz'. İki müddəanın paralel təhlili nəticəsində açıq şəkildə görünür ki, 15 yaşlı fərdin (nümunə kimi) şəxsi məlumatlarına müdaxilə və ya onun öz şəxsi məlumatlarından istifadə etmək yolu ilə müəyyən informasiya xidmətindən istifadə etməsinə məqsədli maneə yaratmaq (məsələn, valideynlərin qəsdən onlara icazə/razılıq verməməsi) beynəlxalq normaya ziddir.

Bir daha vurğulayırıq ki, Aİ-yə üzv dövlətlər həm də UHK-nı ratifikasiya etmişlər. Təsəvvür edək, UHK-nın 1 və 16-cı (18 yaş); GDPR-in 8.1-ci (16 yaş) maddələri təfsir edildiyi təqdirdə ikililik yaranacaq. Qlobal və regional qanunların yaş məsələsində uzlaşmaması **ikinci ziddiyyət hesab olunur** və uşaq hüquqları müddəalarının yanlış tətbiqinə səbəb ola bilər.

[7]GDPR-in 6-cı maddəsi "Emalın qanuniliyi" adlanır. Onun I hissəsi məlumatların prosesləşdirilməsinin qanuni hallarını müəyyən edir, (a) bəndi isə subyektin onun məlumatlarının bir və ya bir neçə xüsusi məqsəd üçün işlənilməsinə razılıq verməsindən bəhs etməkdədir.

Bir sıra ekspert rəylərinə diqqət yetirsək, onlar GDPR-də 16 yaşın çox yüksək hədd olduğu qənaətindədirlər. 'Siyasətçilərin 8-ci maddənin layihəsini tərtib etmə tərzində çatışmazlıq, praktiki səviyyədə qiymətləndirmək bacarığıdır ki, əgər uşaqlar bir fərd kimi ciddi qəbul edilərsə, onların insan hüquqlarına hörmət onların maraq və ehtiyaclarının tez bir zamanda valideynləri ilə uyğunlaşdırılmadığı anlamına gələ bilər'.[8] Bu fikrin tərəfdarları XXI əsrin öncəki dövrlərdən fərqli olduğu qənaətindədirlər və düşünürlər ki, uşaqlar əvvəlki qədər valideynlərindən asılı olmamalıdırlar. Asılılığın azaldılmasını isə resurslara azyaşlıların çox rahat əlçatımlılığı ilə əlaqələndirirlər. Qəbul edildiyi ilk vaxtlarda GDPR-ə gənclərin münasibətini tədqiq edən araşdırmada bu cümləyə rast gəlirik: '8-ci maddə gələcəyə toxunmağa çalışan siyasət resepti kimi görünür və keçmişin qərəzlərini əks etdirməkdən başqa heç nə etmir'.[9] Ekspert rəylərinin əksəriyyətinin və sosial sorğuların nəticəsinin təhlili göstərir ki, internet istifadəçilərinin sayında uşaqların bir həssas kateqoriya kimi çəkisinin artması 16 yaş tənzimləməsi ilə uzlaşmır. Bu, **üçüncü** ziddiyyətdir.

GDPR 8.1-ci maddəsində göstərilmiş "icazə" və "razılıq" (given or authorized) terminləri arasında qanunvericinin maddi və ya texniki olaraq fərqləndirici izah verməməsi qeyri-müəyyənlik yaradır.[10] Problem öz aktuallığını sadəcə bu kontekstdə deyil, həm də uşağın internetdən istifadə etməsi zamanı da qoruyur. Zənn edirəm ki, bu iki termin bir-birinə çox yaxın olsa da, onları bərabərləşdirə bilmərik. Praktiki baxımından "icazə" və ya "razılığ"ın bir-birindən fərqləndirilməsi çətindir və onları bir-birindən ayıra bilməyən (onların fərqləndiyini bilməyən və ya bu mövzuda bu iki terminin olmasını ağlına belə gətirməyən) vətəndaş üçün fərqli hüquqi nəticələrə gətirib çıxara bilər. Hesab edirəm ki, qanunverici bu ziddiyyətin həlli üçün müvafiq tədbirlər görməlidir.

**Sonuncu ziddiyyət** praktiki nəzarətin kifayət qədər problemli olması və istənilən nəticəni verə bilməməsidir. 'Nəzarətçi mövcud texnologiyanı nəzərə almaqla, belə hallarda razılığın uşaq üzərində valideyn məsuliyyəti sahibi tərəfindən verildiyini və ya icazə verdiyini yoxlamaq üçün ağlabatan səy göstərməlidir' (GDPR 8.2). "Ağlabatan səy" ifadəsi konkret deyil. Bu cür "səy" tövsiyə və ya göstərişlər formasında əks etdirilə bilər, ümumi strategiyaları əks etdirən sənəddə cəmlənə bilər. Lakin bu tövsiyələr nə dərəcədə tamlığı əks etdirəcək? Əvvəla, onlayn sistemə daxil olmuş uşaq ona yönəldilmiş sorğuya yalan cavab verə bilər. Məsələn, 11 yaşlı uşaq sistemdəki 18 yaş və yuxarı üçün nəzərdə tutulan xidmətə giriş sorğusuna məqsədli yanlış cavab verə bilər (tutaq ki, 19 yaşı qeyd edə bilər). İkincisi, 16 yaşadək uşaqlar üzərində icazə/razılıq səlahiyyətinə malik valideyn(lər) qəsdən müvafiq xidmətdən istifadəni məhdudlaşdıra bilər, halbuki övladı üçün ciddi əhəmiyyət kəsb edirdi, fəqət daxili münasibətlərdəki problemə əsasən, belə addım ata bilər. Üçüncüsü, Aİ məkanında savadlılıq səviyyəsi normadan yüksək olsa da, bu hər kəsin icazə/razılıqla bağlı qanunvericiliyi bildiyi və ya ən azından xəbərdar olduğu mənasına gəlmir. Qeyd etdiyimiz amilə görə valideyn ümumiyyətlə razılıq verməkdən imtina edə bilər. Daha pis halda isə məlumatları olmayan şəxslərdən valideyn səlahiyyətlərinə sahib ola biləcək şəxs qismində sui-istifadə edə bilərlər. Dördüncüsü, uşaqlar internet xidmətlərindən sadəcə evlərində istifadə etmirlər. Nəzərə almalıyıq ki, uşaqların internetə qoşulacaqları məkanlar çoxluq təşkil edir (məktəblər və s.). Belə olan hallarda müvafiq səlahiyyətin kimdə olması suallar doğurur.

[8] Đorđe Krivokapić, Jelena Adamović. "Impact of General Data Protection Regulation on children's rights in digital environment". Annals FLB – Belgrade Law Review, Year LXIV, 2016, No. 3, səh. 208.

[9] Joseph Savirimuthu. "EU General Data Protection Regulation Article 8: Has Anyone Consulted the Kids?" The London School of Economics and Political Science. Ətraflı məlumat üçün: https://blogs.lse.ac.uk/medialse/2016/03/01/eu-general-data-protection-regulation-article-8-has-anyone-consulted-the-kids/ (son baxış 19 fevral 2022-ci il).

[10] A.Pals, "GDPR from a youth perspective", (son baxış 19 fevral 2022-ci il) https://www.betterinternetforkids.eu/web/portal/news/detail?articleId=687738.

Valideynlərin 16 yaşadək uşaqlar üzərində icazə/razılıq vermək hüquqlarından sui-istifadə etməsi ilə müəyyən hədlərdə mübarizə aparmaq üçün qeyd edilmiş xidmətlər ona birbaşa təklif edilə bilər, lakin belə xidmətlərin dairəsi kifayət qədər məhduddur. ‘Birbaşa uşağa təklif olunan profilaktik və ya məsləhət xidmətləri ilə bağlı GDPR preambulasında nəzərdə tutulan istisna bu məsələni kifayət qədər lazımi aydınlıqla həll etmir’.[11] İstifadəçilərin sayında uşaqların çəkisini əks etdirən cədvələ diqqət yetirək:

| | |
|---|---|
| Dünyada 18 yaşdan aşağı internet istifadəçilərinin faizi (2015-ci il və 2017-ci il üzrə) | ~ 33 % |
| Aİ məkanında 18 yaşdan aşağı internet istifadəçilərinin faizi (2015-ci il üzrə) | ~ 20 % |
| Aİ üzvləri arasında uşaqların internetə müxtəlif (kompüter və ya mobil/digər) vasitələrlə daxil olması faizi üzrə ən yüksək I və II ölkə (müvafiq olaraq İtaliya və Bolqarıstan) – (2019-cu il üzrə) | **93 %** (mobil) ---- **83 %** (mobil) **48 %** (kompüter) |
| Müvafiq olaraq İtaliya və Bolqarıstan üzrə ən azı həftəlik onlayn oyuna daxil olan uşaqların cins amili əsasında faizi (2019-cu il üzrə) | **64%** (o), **28%** (q) **84%** (o), **62%** (q) |
| Onlayn məlumatların doğruluğunu yoxlaya bilməyəcəklərini söyləyən uşaqlar faizi (müvafiq olaraq İtaliya və Bolqarıstan, 2019 üzrə) | **53%** **48%** |
| Məktəb və ya kollecdə ən azı həftəlik internetə qoşulan uşaqların yaş amili əsasında faizi (müvafiq olaraq İtaliya və Bolqarıstan, 2019 üzrə) | **21%-25%** (9-11 yaş) **38%-58%** (12-14 yaş) **64%-74%** (15-17 yaş) |

Cədvəldə də yer verildiyi kimi müxtəlif cihazlar vasitəsilə 18 yaşdan aşağı şəxslərin internetə daxil olmaq faizi ən yüksək iki ölkəsində məktəb və kolleclərdə internetə qoşulmaq faizi heç də aşağı deyil. Məsələn, sonuncu sütunla yuxarıda qeyd etdiyimiz ziddiyyətləri əlaqələndirərək Bolqarıstan məktəb və kolleclərində razılıq/icazə texniki-nəzarət prosesində xüsusilə ciddi problemlərin olduğu qənaətinə gələ bilərik.

GDPR-in 8.3-cü maddəsi diqqətdən qaçmamalıdır. Orada ‘1-ci bənd (8.1 nəzərdə tutulur – müəllif qeydi) uşağa münasibətdə müqavilənin etibarlılığı, formalaşması və ya təsiri ilə bağlı qaydalar kimi üzv dövlətlərin ümumi müqavilə hüququna təsir göstərmir’ norması öz əksini tapmışdır. Buna baxmayaraq, ‘üzv dövlətlərin GDPR 8.1-ci maddəsi üzrə uzlaşmada çətinlik çəkə biləcəkləri qeyd edilir’.[18]

b. "Görünməzlik”dən hipergörünməyə

Dijital mühitin sürətli formalaşmasının mənfi tərəflərindən biri “görünməzlik” problemidir. İnternet resurslarının aktiv və ya qismən aktiv istifadəçisi olan uşaqların müxtəlif məqsədlər saxta profillərin imkanlarından yararlanmaları tendensiyası artmaqdadır. Müxtəlif sosial şəbəkələrdə qarşılaşılan hallar göstərir ki, adətən uşaqlar iki profildən istifadə edirlər, biri həqiqiliyi ilə seçilir, digəri isə onların müxtəlif maraqlarına xidmət edir. Məsələn, üçüncü şəxsləri narahat etmək, sadəcə olaraq tanınmalarını istəməmək, müəyyən məqsədlər üçün başqalarının hesablarını “gizli nəzarət”-də saxlamaq, valideynlərinin qoyduğu qadağaların pozulması halında onların cəzalarından qorxaraq onlayn oyunlar oynayan uşaqların başqa adlardan istifadə etmək və lazım olduqda təkzib üçün tutarlı sübutu olmaq və s.

Ümumiyyətlə, saxta profillərin aşkara çıxarılması, onların tənzimlənməsi kifayət qədər çətindir. Hesab edirəm ki, çətinliyin birinci səbəbi elə informasiya anlayışının hədsiz genişliyi ilə bağlıdır. 'Bu anlayış həddən çox genişdir və ümumi elmi mənada bu dərəcədə genişliyə haqq qazandırmaq mümkün olsa da, dəqiqlik və birmənalılıq tələb edən hüquqşünaslıq üçün elə də məqsədəuyğun deyil'.[19] Unutmaq olmaz ki,

[11] İstinad nöm.8, səh. 211.
[12] S. Livingstone, J. Byrne, J. Carr, “One in three: internet governance and children’s rights”, The Global Commission on Internet Governance, Paper Series, 22/2015.
[13] “When Free isn’t”, eNASCO Report, 59, (dekabr 2015-ci il üçün). https://www.unicef.org/media/48601/file (son baxış 20 fevral 2022-ci il, səh 3. - 2017-ci il üçün).
[14] GKO Summary Report, “Growing up in a connected world”. UNİCEF Office of Research, 2019, səh. 6.
[15] İstinad nöm.15, səh. 8.
[16] İstinad nöm.15, səh. 12.
[17] İstinad nöm.15, səh. 20.
[18] İstinad nöm.8, səh. 214.
[19] Z.A.Əsgərov. “Konstitusiya hüququ”. Dərslik, yenidən işlənmiş ikinci nəşr. Bakı, Bakı Universiteti nəşriyyatı, 2011, 760 s. Səh. 189.

informasiya dedikdə sadəcə müəyyən məlumat bazası başa düşülmür, eyni zamanda informasiya sisteminə giriş, məlumatlardan faydalanmaq da bu terminin bir parçasıdır. Mövzumuza uyğun olaraq, UHK-nın 17-ci maddəsi uşaqların kütləvi informasiya ehtiyatlarından istifadə etmək hüququnu müəyyən edir və dövlətlər bir sıra məqsədlər üçün (uşaqların sosio-psixoloji inkişafı və s.) onların bu hüquqlarının realizəsinə təminat verir. Məhz bu təminat əvvəldə qeyd etdiyimiz saxta profillərin yaradılması üçün sui-istifadə mühiti yaradır. Saxta profillərlə mübarizədə zənn edirəm ki, dövlətlər xüsusilə, beynəlxalq təşkilatların işləyib hazırlayacağı nizamlama alqoritminə ciddi ehtiyac duyurlar.

"Görünməz" uşaqları gözləyən təhdidi onların özləri çox vaxt düşünmürlər. Uşaq psixologiyasına istinadən, onların daha çox onlayn oyunlara yönəldiyi qənaətinə gəlirik. Uşaqlar isə oyunlarda uğur qazanmaq üçün çox vaxt onlara təqdim edilmiş xidmətləri qəbul edirlər. Əksəriyyət xidmət şərtlərini ümumiyyətlə oxumur və bununla da "görünməz" məqsədlər sahibi uşaqlar öz məlumatlarını sistemə daxil edərək hipergörünən vəziyyətdə qalırlar. 'Eyni zamanda, uşaqların problemləri üçün ənənəvi oflayn həll yolları da çətinləşir, çünki uşaqlar şirkətlər üçün həddindən artıq görünsələr də, onların oyunları, dostluqları və problemləri onların rifahı üçün fəal şəkildə maraqlanan hər kəs üçün yeni görünməzdir'. [20]

Hipergörünmə uşaqları bir sıra təhlükələrin hədəfinə çevirir. Onların məlumatları, brauzerlərdə, sosial tətbiqlərdə axtarışlarını əks etdirən tarixçələri və digər məxfi informasiyalar çox asanlıqla reklam ləvazimatına çevrilir, bununla da şirkətlər və digər subyektlər pul qazanırlar. GDPR hipergörünmə ilə mübarizədə istənilən səviyyədə effektiv deyil.

Tənzimləmə sənədində fikrin və informasiya ifadəsinin (mad. 85), rəsmi sənədlərə ictimai girişin (86), milli identifikasiya nömrəsinin (87), məşğulluq kontekstində emal (88), ictimai maraq, statistik, tarixi, elmi tədqiqatlarla bağlı təminat və istisnalar (89), məxfilik öhdəliyi (90), kilsə və dini təşkilatların məlumatlarının qorunması (91) "spesifik məlumat emalı" fəslinə daxil edilsə də, bu fəsildə uşaqlarla bağlı məlumatların emalı ilə bağlı konkret maddənin olmaması məqbul hesab edilmir. Həmçinin, mütləq şəkildə bir maddədə bütün problemləri həll edəcək normanın hazırlanması real olmasa da, qismən tənzimləmənin olması uşaqların dijital mühitdə hüquqlarının müdafiəsi üçün regional səviyyədə ciddi addım ola bilərdi.

## GDPR-İN MÜSBƏT YÖNLƏRİ.

Çoxsaylı tənqid və ziddiyyətli məqamlara baxmayaraq GDPR-in spesifik əhəmiyyətini qeyd etməliyik. Əvvəla, GDPR-in uşaqların hüquqlarına aid normaya yer verməsi müsbət qiymətləndirilməlidir. İronikdir ki, 4-cü maddədə uşaq anlayışı verilməsə də, uşaq hüquqlarının əhəmiyyətini qanunverici dərk etdiyindən ona sənəddə yer verir. İkincisi, əvvəldə də qeyd etdiyimiz kimi 1995-ci il Direktivində yaşla bağlı məsələyə yer verilmirdi. Qüsurlu da olsa, GDPR onunla bağlı normanı əks etdirdi və qəbul olunduğu ilk vaxtlarda insanların marağının səbəbi də bu idi. O cümlədən, Aİ-də GDPR qədər internet problemini tənzimləyən normativ-hüquqi akt yox idi. Uşaq hüquqlarının önəmi təkcə 8-ci maddədə deyil, preambulada da əks edilmişdir.

Üçüncüsü, GDPR pozuntulara görə məcburiyyət tədbirlərini və onların hansı halda tətbiq edilməli olduğunu da müəyyən edir. GDPR şəxsi toxunulmazlıq hüquqlarının pozuntusuna görə məsuliyyət və tənbeh tədbirləri ilə bağlı ayrıca fəsil (VIII fəsil, 77-84-cü maddələr) ayırmışdır. 83.4-cü maddədə bu maddənin

[20] Livingstone, Sonia. "Realizing children's rights in relation to the digital environment". European Review. ISSN 1062-7987 (In Press), 2020. Səh. 6.

ikinci bəndinə[21] uyğun olaraq 10.000.000 avroya qədər və ya öhdəlik halında əvvəlki maliyyə ilinin ümumi dünya miqyasında illik dövriyyəsinin 2%-i qədər inzibati cərimələrə səbəb olan hallar qismində 8-ci maddə üzrə nəzarətçi və prosessorun öhdəliklərini pozması qeyd edilir. Dördüncüsü, GDPR-də uşaq hüquqlarının fundamenti olan 8.1-ci maddə 17-ci maddə üzrə əsaslardan biri kimi müəyyən edilmişdir. Məlumatın aid olduğu subyektin nəzarətçidən onun məlumatlarını ləngitmədən silməyi tələb etmək hüququnu əks etdirən 17-ci maddədən uşaqların məlumatlarına yer verilməsi sevindiricidir. Beşincisi, GDPR Direktivə nisbətdə 'informasiya xidməti provayderləri üzərində sərt qaydalar qoyduğundan yeni biznes modelləri ona əsasən şəkillənəcək'.[22] Göründüyü kimi GDPR həm uşaq hüquqlarının mühafizəsini vurğulayır, həm də informasiya xidmətlərini həyata keçirən subyektlərlə uşaq hüquqları arasında balansı qorumağa çalışır.

## NƏTİCƏ.

Uşaq hüquqlarının dijital mühitdə tənzimlənməsi ilə bağlı ciddi ziddiyyətləri olsa da, zənn edirəm ki, GDPR qlobal səviyyədə UHK-dən sonra ikinci, regional səviyyədə isə birinci mövqedə durur. Direktiv dönəmin reallığı ilə ayaqlaşa bilmədiyi üçün əvəz edilmişdi. GDPR-ı isə qənaətbəxş saymaq olar.
Hələ də mövzunun tədqiqatçıları başda olmaqla Aİ vətəndaşları GDPR-da bir sıra dəyişikliklər ediləcəyi ümidindədirlər. Çünki yaşla bağlı vurğuladığımız məqamlar hazırda olmasa da belə, gələcək üçün ciddi problemlər yarada bilər. Xüsusilə, başlıca məqsədlərindən biri hüdudları daxilində xalqların harmoniyasını təmin etmək olan Avropa İttifaqı üçün təhdid dərəcəsinə qalxa bilər. GDPR-in 16 yaşı etalon kimi müəyyən edərək 13 yaşdan aşağı olmaması şərti ilə üzv dövlətlərə onun əsasında qanunları hazırlamalarını tövsiyə etməsi ilk baxışdan yaxşı görünə bilər, fəqət internet istifadəçisi olan uşağın informasiya xidmətini həyata keçirən subyektlə fərqli üzv dövlətdən olması özlüyündə problemdir. Uşaqların informasiya xidmətlərindən istifadəsinin qarşısını öz hüquqlarından sui-istifadə edərək alan valideynlərlə mübarizədə mütəxəssislərin alqoritmlər işləyib hazırlamaları zəruridir. Mövzuya optimist yanaşdıqda GDPR 17-ci maddəsində 8.1-ci maddənin əsaslardan biri kimi müəyyən edilməsini vurğulamaq lazımdır. Ümid edirəm ki, istər Avropada, istər digər regionlarda müvafiq aktlar qəbul edildikdə bu Tənzimləmənin müsbət yönlərindən istifadə edəcəkdir.

[21] GDPR-in 83.2-ci maddəsində inzibati cərimənin tətbiq edilib edilməməsi zamanı nəzərə alınmalı şərtlər öz təsbitini tapmışdır. Göstərilir ki, 83-cü maddədəki inzibati cərimələr 58.2-ci maddənin a-h və j bəndlərinə (müvafiq səlahiyyətli orqanın tam səlahiyyətə sahib olduğu məsələlər) əlavə və ya onların əvəzinə tətbiq edilir. GDPR 83.4-də əks olunmuş "nəzarətçi" (controller) və "prosessor" (processor) ifadələrinin izahı 4-cü maddədə göstərilmişdir. Ona istinadən, birinci termin fərdi məlumatların emalının məqsəd və vasitələrini təkbaşına və ya başqaları ilə birlikdə müəyyən edən fiziki və ya hüquqi şəxs, dövlət orqanı, agentlik və ya digər orqan; ikinci isə fərdi məlumatları nəzarətçi adından emal edən fiziki və ya hüquqi şəxs, dövlət orqanı, agentlik və ya digər orqan deməkdir.
[22] İstinad nöm.8. Səh. 218.